# DİLÇİLİYİMİZİ YAŞADAN DİLÇİLRİMİZ

Müsahibim Sumqayıt Dövlət Universitetinin şöbə müdiri, dilçiliyimizin təbliğatçısı Xalidə xanım Quliyevadır.

Xalidə Pənah qızı Quliyeva 1981-ci ildə Abşeron rayonu Saray qəsəbəsində anadan olub. 1998-ci ildə ADPU-nun Filologiya fakültəsinə, 2002-ci ildə həmin universitetin magistratura şöbəsinə qəbul olmuşdur. 2004-cü ildə magistratura şöbəsini "Azərbaycan dili və ədəbiyyatının tədrisi metodologiyası və metodikası" ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. 2006-cı ildən Sumqayıt Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğuldur. 2015-ci ildən Mədəni tədbirlər üzrə klub müdiridir. Eyni zamanda 2023-cü ildən Dil və ədəbiyyat kafedrasının dissertantıdır. Ölkənin ən böyük təhsil platformalarından biri olan Təhsil Forumu - 2024 tərəfindən keçirilən möhtəşəm tədbirdə Xalidə Quliyeva təhsildəki fəal və uğurlu fəaliyyətinə görə "Təhsil fəalı" döş nişanı ilə təltif edilib. Xalidə xanım gənc dilçi kimi dilimizin aktual problemləri, bu sənəti seçməsi ilə bağlı fikirlərini bizimlə bölüşdü.

Sual: Salam Xalidə xanım, xoş gördük. İlk sualım sizə belə olacaq, dilçiliyimizə maraq sizdə nədən yaranıb?

İlk öncə onu demək istəyirəm ki, Allah taladan bizə gözəl bir nemət verilib. O da dildir. Dil vasitəsi ilə insanlar özünün mədəni-mənəvi sərvətlərini biri-birinə ötürə bilir və biri-birinə əxz eyləyə bilir. Bu böyük xoşbəxtlikdir. Bizim də xoşbəxtliyimiz ondan ibarətdir ki, Azərbaycan dili kimi gözəl bir dilimiz var.

Hələ orta məktəb illərindən dilimizə qarşı həssaslıq məni özünə cəlb edibdir.

Dahi şəxsiyyət, ümummilli liderimizin də dediyi kimi hər bir xalq öz dili ilə yaranır. Fəxrlə deyə bilərik ki, biz bir xalq, bir toplum kimi zamanın cürbəcür sınaqlarından keçərək dilimizi, milliliyimizi, mənəvi dəyərlərimizi qoruyub bu günümüzə qədər gətirib çıxartmışıq. 50 milyondan çox həmvətənimizin danışdığı bu dil, dünyaya səs salan şairlər, ədəbiyyatçılar, alimlər, siyasətçilər, dahilər yetişdirib. Bu dil ilə tanıtmışıq ədəbiyyatımızı, kimliyimizi, bu dil ilə elan etmişik dünyaya müstəqilliyimizin əbədiliyini. Bu dil Nəsimilər, Füzulilər, Xətailər, Zərdabilər, Vaqiflər, Vidadilər, Sabirlər, Müşfiqlər yetişdirən bir millətin dilidir.

Dilimizin inkişafı haqqındakı fikirlərinizi bilmək istəyərdik:

SSRİ dövründə əlifbamız əlimizdən alınsa da dilimiz toxunulmaz olaraq qalıbdır. Müstəqillik dövrümüzə qədəm qoyduğumuz ilk vaxtlardan, yəni 1992-ci ildən üzü bəri alimlərimiz, ədəbiyyatşünaslarımız, xüsusi ilə dilçilərimiz ana dilimizin üzərinə kölgə salmış xətti götürmək üçün öz səylərini əsirgəməmişlər.

Bütün sahələrdə olduğu kimi, ana dilimizin inkişafında, onun dövlət dili olaraq yüksək mərtəbəyə qaldırılmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri olub. Məhz ümummilli liderimizin apardığı məqsədyönlü və düşünülmüş siyasətin nəticəsidir ki, 1995-ci ildə ilk milli Konstitusiyamıza Azərbaycan dili dövlət dili kimi daxil edilib. 2001-ci ilin iyul ayında Ulu Öndər Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalayıb, daha sonra isə 2001-ci ildə imzaladığı fərmana əsasən, avqustun 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsis olunub. Azərbaycan dilinin beynəlxalq aləmdə nüfuz qazanması dilimizi ən mükəmməl formada təqdim etməyi bacaran Heydər Əliyevin adı ilə bağlıdır.

Ailənizdə necə, dilçiliyə maraq olubmu?

Yaxşı deyiblər ki, bu dünya gör-götür dünyasıdır. Biz görə-görə, öyrənə-öyrənə öz dünyamızı yaradırıq. Ailəmizdə həmişə elmə, xalq musiqisinə, sözə, saza, incəsənətə maraq olubdur. Evimizdə Azərbaycanın dahi şairlərinin, yazıçılarının, elm, mədəniyyət adamlarının, incəsənət xadimlərinin əsərləri təbliğ olunubdur. Atam elm adamı olduğundan evimizdə çoxlu sayda ziyalılar qonaq



olublar. Onlar arasında həmişə dahilər haqda diskusiyalar yaranırdı, mövzular genişlənirdi.

Belə başa düşürəm ki, dilçiliyə sizdəki maraq elə ailədən yaranıb?

Düz fikirləşmisiniz. Bu fikir ideologiyası körpəlikdən mənim yaddaşıma həkk olunduğundan ədəbiyyat elminə marağım günü-gündən artmağa başlayıb. Orta məktəbi qurtaranda sənədlərimi məhz III qrupa verməkdə israrlı oldum. Yüksək balla ADPU-nun Filologiya fakültəsinə qəbul oldum. Ali məktəbdə müəllim kimi işləmək təklifimi valideyinlərimlə məsləhətləşdim. Onlar fikrimə rəvac verdilər. Növbəti ildə təhsil aldığım ADPU-nun magistrarurasına qəbul oldum. İki il sonra həmin universitetin filologiya fakültəsini fərqlənmə diplomu ilə qurtardım. Burada bir nüansı da diqqətə çatdırım ki, magistratura pilləsi gündəlik olmadığından əmək fəaliyyətimə mətbuatdan başladım. Nəinki çalışdığım "Azərbaycan övladı" qəzetində, eyni zamanda "Kredo", "Şərq", "Qarabağa gedən yol" qəzetlərində də mütəmadi olaraq məqalələrim dərc olunubdu.

Bir dahi yazıçı belə yazırdı: "Xalqın çox böyük sərvəti - onun dilidir". Bu, o deməkdir ki, hər bir insan öz ana dilinə hörmət etməli, onu sevməli, onun inkişafı və çiçəklənməsi üçün çalışmalıdır. Yer üzündə yaşayan bütün millətlərin öz dili var. Vətənini, millətini sevən hər bir bəşər övladı öz dilini sevməyi bacarmalıdır. Dilini bilməyən insan, həyatda cansız məxluqdur. Dil vətəndir, dil anadır, dil layladır.

Elm adamı olmaqda atanızın mənəvi dəstəyini duymusunuzmu?

Dil haqqında fikirlərimi söyləyərkən bir məqamı burada qeyd etməyi zəruri bilirəm. Atamın dediklərindən: - Mən 1973-cü ildə 21 yaşında ikən SSRİ dövlətini Kanadanın Sent-Cons şəhərində təmsil edirdim. Orada çalışdıqdan bir müddət sonra məni işlədiyim şəhərdən Kanadanın başqa bir şəhəri olan Nyufandlendə göndərdilər. Səfirimiz Lev Zelmanoviç Forman mənə təklif etdi ki, Xatirə kitabında ürək sözlərimi yazım. Mən ona dedim ki, Lev Zelmanoviç sən bilirsən, SSRİ-də dövlət dili rus dilidir. Mən azərbaycanlıyam. Mən Formanın bu kitabına ürək sözlərimi hansı dildə yazsam razı qalar? O mənə dedi ki, hansı dildə istəsən yaza bilərsən.

Sovet dövlətinin qılıncla baş kəsdiyi bir dövrdə mən onun Xatirə kitabına ürək sözlərimi Azərbaycan dilində yazdım. Sonra ondan soruşdum ki, nə vaxtsa burada azərbaycanlı olubmu? O, mənə dedi ki, 1954-cü ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərindən burada Rizayi Rufiq adında bir nəfər azərbaycanlı təmsil olunub. Atamın keçdiyi bu həyat yolun bildiyim halda mən ana dilimə necə meyilli olmaya bilərdim?

Mənim elm adamı olmağıma dəstək verən ilk növbədə valideynlərim olub. Atam tarixi bir yol keçmiş adamdır. İxtisasca jurnalistdir. Əlli ildir ki, Azərbaycan mətbuatında qələm-söz sahibidir. 2500-dən çox məqalənin müəllifi, 104 müəllif kitabının redaktoru olmaqla yanaşı bir çox dəyərli əsərlərin müəllifidir. "Abşeron", "Bakı", "Azərbaycan gəncləri", "Sovet kəndi" qəzetlərində çalışıb. 2003-cü ildən özünün təsis etdiyi "Azərbaycan övladı" qəzetinin baş redaktorudur. Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvüdür. Atam publisist, nasir, şair, və naşirdir. Yaradıcılığımda daima onun dəstəyinə ehtiyac duymuşam.

Dilimizdəki yad sözlərə fikirlərinizi bilmək istərdim:

Dilimizin tərkibinə daxil olan yad sözlər, ifadələr nəinki məni, Azərbaycanın milli ruhda formalaşan bütün adamlarını, başlıcası isə dilçi alimlərimizi daim düşündürmüş, narahat etmiş və bu gün də etməkdədir. Bununla yanaşı qeyd etməyi zəruri bilirəm ki, gələcəyin bir alimi kimi bu sahədə nisgil deyiləm. Yetmiş ildən artıq bir dövrdə rus imperiyasının təsir dairəsində yaşasaq da dilimizi qoruyub saxlaya bilmişik. Bu gün dilimizin inkişafına ilkin olaraq dövlət başçısı cənab İlham Əliyev tərəfindən, daha sonra Dilçilik İnstitutu və onun alimləri tərəfindən böyük dəstək var. Sevinirəm ki, Azərbaycan müstəqillik qazanandan sonra dilimiz dünyanın bütün ölkələrinə yol açıb. Planetimizin 70-dən çox ölkəsində Azərbaycan Səfirliyinin açılması dilimizin, elmimizin, ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin, iqtisadiyyatımızın inkişafına bariz nümunə deyilmi?

Dilimizin tərəqqisini nədə görürsünüz?

Dilimizin inkişafı üçün tarixi yaddaşımızı qaytarıb gəncliyimizə verməyi bacarmalıyıq. Azərbaycan gəncliyini milli ruhda formalaşdırmağı bacarmalıyıq. Düşünürəm ki, bu sahədə təkcə dilçi alimlərimiz yox, tarixçilərimiz də öz fikirlərini ortaya qoymağı bacarmalıdırlar.

Biz qloballaşan dünyadan həm mədəniyyətimizin, o cümlədən də dil mədəniyyətimizin müdafiəsində olmalıyıq. Eyni zamanda dünyanın böyük mədəniyyətləri ilə o zəruri kontaktlarda iştirak etməliyik. Biz öz milli mənliyimizi, dil mənliyimizi ifadə eləməyi bacarmalıyıq. Yəni bu, günümüzün yox, dünyanın tələbidir və Azərbaycan dili də bugünkü dünyanın inkişaf eləmiş dillərindən biridir. Azərbaycan dilini Tanrının və tarixin ona verdiyi səlahiyyət və missiya daxilində inkişaf elətdirmək lazımdır.

El bilir ki, sən mənimsən,  
Yurdum, yuvam, məskənimsən,  
Anam, doğma vətənimsən!  
Ayrılarmı könül candan?  
Azərbaycan, Azərbaycan!

**05.03.2025**

**Müsahibəni apardı:**



***Hüsniyyə ARİFQIZI***